# Sevdiyin yolla pul qazanmaq hər şeydən üstündür

## Oktay Namazov: “Çeynənmiş mövzular təkrar-təkrar istifadə olunduğu üçün Azərbaycanda reklam biznesi sürətlə inkişaf etmir”



**Deyirlər, gələcək gənclərin əlindədir. Onların nələrə qadir olduğunu görmək üçün isə gənclərə meydan vermək lazımdır. Şükürlər olsun ki, zəmanəmizin gəncləri beynəlxalq arenalarda və çalışdıqları müxtəlif sahələrdə kifayət qədər sözlərini demək qüdrətinə malikdirlər. Elə ”Gənclik qəzeti”-nin bu həftəki qonağı, gənc rejissor Oktay Namazov kimi.**

**Oktayın çəkdiyi qısametrajlı film Şərqi Avropada mədəniyyət müxtəlifliyi üzrə ADAMİ Media Mükafatını (ADAMİ Media Prize for Cultural Diversity in Eastern Europe) qazanıb. Hazırda müxtəlif layihələri ilə fəaliyyətini davam etdirən gənc rejissor öz təəssüratlarını bizimlə bölüşüb.**

**Xəyalə Rəis**

**- Oktay bəy, istərdik, özünüz barədə oxucularımızı məlumatlandırasınız.**

- 1987-ci ildə Şəki şəhərində anadan olmuşam. Orada 11 saylı məktəbdə təhsil almışam, daha sonra 2001-ci ildə Bakıya köçdüm və Bakı Türk Anadolu liseyində təhsilimi davam etdirdim. Bakalavr təhsilimi isə Türkiyədə Akdeniz Universitetində ”Halkla ilişkiler ve reklamcılık” ixtisası üzrə bitirdim. 5 il orada təhsil aldım. Türkiyədə birgə qaldığım ev yoldaşım və universitetdən dostlarım rejissorluq ilə məşğul idilər. Onlarla birlikdə olduğum üçün bu sahəyə daha çox meyil göstərdim. Ümumiyyətlə, mənim həvəsim marketinq sahəsinə idi. Ona görə də bakalavr ixtisasını seçərkən ilk ili menecment ixtisasına qəbul olsam da, təhsilimi davam etdirmədim. Çünki nə istədiyimi bilirdim. İkinci il universitetə sənədlərimi verdim və istədiyim ixtisasa yiyələndim.

**- Qeyd etdiniz ki, Türkiyədə reklam işi ixtisasına yiyələndiniz. Azərbaycanda reklamla bağlı hər hansı layihələrdə iştirak etmisinizmi?**

- Əlbəttə. Reklam sahəsi üzrə bir neçə uğurlu layihələrə imza atmışıq. İki ildən çoxdur ki, bu sahədə çalışırıq və artıq Elephants Group adlı öz şirkətimizi də qurmuşuq. Misal üçün, ən sonuncu layihəmiz daun sindiromlu uşaqlar üçün çəkilən sosial videoçarxdır. Bundan başqa, meşələrin qorunması ilə bağlı bir layihə də hazırlamışıq. Bu layihənin məqsədi insanlarda sosial məsuliyyəti artırmaqdan ibarətdir. İşlərimiz bunlarla kifayətlənmir. Belə ki, dijital marketing üzrə də müştərilərimizə xidmət göstəririk. Bir sözlə, reklam, PR sahəsində fəaliyyətimiz davam edir.

**- Reklam işi pul gətirən sahədirmi?**

- Reklam işi çox maraqlı sahədir. Ancaq Azərbaycanda bu sahə bir qədər fərqlidir.

**- Necə yəni?**

- Buradakı müştərilər bir qədər fərqlidir. Səbəb budur ki, müştəriləri məmnun etmək çox çətindir. Hər şey kəmiyyətdən qaynaqlanır. Rəhbərliklə reklam şirkətlərinin fikirləri çox zaman üst-üstə düşmür. Düzdür, elə müştərilərlə işləmək məcburiyyətində qalmırıq. Yəni biz elə müştərilərlə işləmirik. Ancaq kolleqalarımızdan, ətrafımızdakı insanlardan eşitdiklərimizə görə, bu belədir. Misal üçün, bir bankın marketinq şöbəsi reklamı bəyənib, onun yayımlanması üçün razılıq versə də, rəhbərlik onu bəyənmir. Ona görə də reklam sahəsində çeynənmiş mövzular təkrar-təkrar istifadə olunur, yenilik olmur. Məhz bu səbəbə görə Azərbaycanda reklam biznesi sürətlə inkişaf etmir.

**- Sizcə, Azərbaycanda reklam işinə yiyələnmək üçün təhsil nə dərəcədə önəmlidir?**

- Dünyanın bir çox ölkəsində reklam sahəsində çalışan insanların əksəriyyəti bu sahədə təhsil almayıb. Humanitar, mühəndislik, ədəbiyyat və digər sahələr üzrə ixtisaslara yiyələnən insanların reklamçı və menecer işlədiyinin şahidi olmuşam. Reklam işində əsas məsələ təcrübə və peşəkarlıqdır. Bu işdə müştərinin tələblərini diqqətə almaq və keyfiyyətli məhsul ərsəyə gətirmək üçün reklam bilgisinin olması vacib amillərdəndir. Təhsil təbii ki, olmalıdır. Əgər bu sahədə işləyirsənsə, tam biliyə yiyələnməlisən. Əks təqdirdə, böyük səhvlərə yol verə bilərsən.



**- İlk dəfə əlinizə peşəkar kamera alanda hansı hissləri yaşadınız?**

- Ətrafımızda peşəkar kameralardan çox istifadə olunurdu. Biz də onu öyrənmək üçün özümüz aldıq və onun üzərində öyrənməyə çalışdıq. Beləliklə, yavaş-yavaş çəkilişlərə başladıq. Biz elə kor-koranə gedib kamera almadıq. Kameranı ələ götürməzdən öncə onun hansı funksiyanı daşıdığını bilmək çox vacibdir. Yəni texniki tərəfdən bu kamera hansı işləri görə bilər, biz bununla nələr edəcəyik? Əslində kamera ilə qiyabi də olsa tanış olmuşduq. Daha sonra əyani şəkildə kameranı alıb işlətdik. Tam olaraq nə hissləri yaşadığımı xatırlamıram. İlk dəfə başlayanda içimdə bir inamsızlıq vardı, ancaq zaman keçdikcə bu hiss yox oldu.



**- Bizdə toylarda hər kamera tutan insan özünə rejissor deyir. Həmin ”rejissorlar” bu bazarda kifayət qədər məvacib əldə edirlər. Bəs nə zamansa sizi toy bazarında görə biləcəyikmi?**

- Qəti şəkildə toy bazarı barədə düşünməmişəm. Dəfələrlə qarşımıza fürsətlər çıxsa da, biz imtina etmişik. Bir söz var, ”Sən nə iş görürsənsə, osan”. Əgər toya gedib kamera tutursansa, ömür boyu toyçəkən olaraq qalacaqsan. Bir dəfə toyda əlinə mikrofon alan adama el arasında ”manıs” deyirlər. İndi bir dəfə əlimə kamera alıb toya getsəm, onun adı üstümdə qalacaq. Bir-iki dəfə çəkdikdən sonra pul insana şirin gələ bilər.

Biz maddi ehtiyacları qarşılamaq üçün reklam sifarişləri alırıq. Ancaq film sahəsində də gəlir güdmədən işlər görürük. Bununla paralel olaraq reklam sifarişi götürmüşük.

**- Layihələrdən qazandığınız məvacib sizi qane edirmi?**

- Böyük pullarda gözümüz yoxdur. Öz əl işimizi ortaya çıxarmaq bizim üçün daha xoşdur, nəinki gedib toylarda kamera tutmaq. Düzdür, hər kəsin pula ehtiyacı var. Bunu eqoistlik kimi başa düşməyin. Daha maraqlı və sevdiyin yolla pul qazanmaq bizim üçün hər şeydən üstündür.

**- Davamlı olaraq hansısa bir şirkətlə işləməyi necə, düşünürsünüzmü?**

- Rejissor kimi uzun müddət fasilələrlə iş görsəm də, paralel olaraq operator kimi də fəaliyyət göstərirəm. Maddi gəliri bir qədər də buradan əldə edirəm. Hansısa şirkətlə işləyib-işləməyəcəyimi öncədən deyə bilmərəm. Sadəcə, sırf o şirkət üçün işləmərəm. Təklif gəlsə, dəyərləndirmək olar. Onlardan layihələr gəldikcə, işləmək imkanım varsa, niyə də olmasın?

**- Keçək əsas məsələyə, sizin çəkdiyiniz qısametrajlı film Şərqi Avropada mədəniyyət müxtəlifliyi üzrə ADAMİ Media Mükafatına layiq görülüb. İstəyərdik bu mükafat barədə məlumat verəsiniz.**

- Avropada 26 ildi Media Mükafatı təqdim olunur. Bu ildən etibarən Şərqi Avropa ölkələri üçün ADAMİ mükafatı təşkil olunur və bu mükafatlandırılmanın ilk gala gecəsi Gürcüstanın paytaxtı Tiflis şəhərində keçirildi. ADAMİ Media Mükafatı Şərq Tərəfdaşlığı ölkələrində miqrasiya, inteqrasiya və mədəniyyət müxtəlifliyi mövzusunda ən yaxşı proqramları qəbul edir. O ki qaldı mənim müsabiqəyə qatılmağıma, bir il əvvəl Qrız kəndinə səyahət zamanı Azərbaycandakı etnik xalqlardan kiçik video-çarx hazırlamaq qərarına gəldim. Sonra həmin sənədli filmi ADAMİ Media Mükafatına təqdim etdim. Bu mükafat Azərbaycan, Belarus, Gürcüstan, Moldova, Ermənistan və Ukraynadan olan jurnalistlər və media mütəxəssislərinə verilir. Keçən ay xəbər gəldi ki, artıq biz finaldayıq. Ümumi olaraq müsabiqəyə 97 çarx göndərilmişdi. Festivalın siyasi məqsədi və yaxud hansısa bir hədəfi yoxdur. Şərq tərəfdaşlığı məqsədi daşıyır. Son nəticədə bu müsabiqənin qalibi biz olduq.

**- Oktay bəy, planda yeni film varmı?**

- Əlbəttə var. Ümumiyyətlə, uğur insanı işləməyə daha çox həvəsləndirir. İnsan daha çox təcrübə qazanır, çevrəsi genişlənir. Maliyyə dəstəyi olsa, görüləcək çox iş var. Maliyyə problemlərimizi həll etsək, daha geniş, böyük filmlər çəkmək niyyətindəyik. Dayanmırıq, daima öz üzərimizdə çalışırıq. Maddi çətinliklərimizi həll edə bilsək, daha yaxşı, müasir texniki avadanlıqların köməyi ilə filmlər çəkmək fikrimiz var. Ümid edirik ki, yanvar-fevral aylarında layihəmiz üzərində işləyə biləcəyik.